**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

# 5908.01 - "Siyasi nəzəriyyə"ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanının

# PROQRAMI

**Bakı - 2021**

# İZAHAT VƏRƏQİ

5908.01 – “Siyasi nəzəriyyə fənni üzrə fəlsəfə proqramının əsas məqsədi müasir siyasi nəzəriyyəyə aid olan əsas problemlər haqqında bilgilərin böyük həcmi ilə müvafiq ixtisas üzrə təhsil alan doktorant və dissertantları tanış etmək,onlarda bu bilik sahəsinin tarixi və hazırki vəziyyəti, inkişaf xarakteri və spesifik xüsusiyyətləri barədə mümkün qədər dolğun təsəvvür yaratmaqdan ibarətdir.Proqrama daxil edilən bütün problemlər xronoloji və məntiqi ardıcıllıqla izah edilir, siyasi nəzəriyyənin hər bir konkret sahəsindəki yeniliklərlə ənənəvi bildilərin qarşılıqlı əlaqəsi göstərilir.

Proqram siyasi nəzəriyyənin ayrı-ayrı tədqiqat sahələri üzrə strukturlaşdırılmışdır. Onun məzmununu bu sahənin özülü sayılan 15 akademik mövzu təşkil edir. Bu struktur “siyasi nəzəriyyə” ixtisası üzrə hazırlanan doktorant və dissertantlara tələb olunan tematikanı əhatə etməyə imkan verir.

Bütövlükdə proqram ali təhsilin doktorantura pilləsinin həm müasir beynəlxalq, həm də ölkə daxili strukturlarına uyğun tərtib edilmiş,onların yüksək səviyyəli politoloq alim kimi formalaşmasına və dünyagörüşlərinin daha da genişlənməsinə yönəlmişdir.

## “Siyasi nəzəriyyə” fənni üzrə mövzuların tematikası

Mövzu 1. Müasir siyasi elmin nəzəri-metodoloji problemləri.

Mövzu 2. Siyasi elmin əsas paradiqmaları.

Mövzu 3. Siyasi elmin tarixi.

Mövzu 4. Müasir dövrün əsas milli siyasi elm məktəbləri.

Mövzu 5. SEBA və siyasi elm üzrə Avropa təşkilatları.

Mövzu 6.Siyasi komparativistika.

Mövzu 7.Siyasi fəlsəfə.

Mövzu 8. Analitik siyasi nəzəriyyə.

Mövzu 9. Empirik siyasi nəzəriyyə.

Mövzu 10. Qlobalistika və siyasi qloballaşma.

Mövzu 11. Beynəlxalq münasibətlərin nəzəriyyəsi və siyasi təhlili.

Mövzu 12.Siyasi institutlar.

Mövzu 13. Siyasi davranış.

Mövzu 14.Sosial siyasət.

Mövzu 15.Siyasi mədəniyyət.

## Mövzu1. Müasir siyasi elmin nəzəri-metodoloji problemləri

Siyasi elm siyasət dünyası haqqında olan və onun sosial məkanının tədqiqi əsasında genişlənən açıq, tam bilik sistemi kimi. Siyasi elmin mahiyyəti, xüsusiyyətləri və əhəmiyyəti. Ümumi politologiya –siyasətin mahiyyətini öyrənən özül, fundamental elm kimi. Müasir siyasi elmin predmeti və obyekti. Siyasi elmin qanunları, (qanunauyğunluqları). Siyasi elmin kateqoriyaları. İctimaiyyatın inteqral kateqoriyaları. Politologiyanın xüsusi kateqoriyaları. Bu elmdə tədqiqatın əsas aləti olan 6 qrup kateqoriya.

Müasir siyasi elm – bütün politoloji subfənləri (əlavə fənləri) birləşdirən meqaelm və yaxud inteqrativ bilik sahəsi kimi. Həmin subfənlərin, o cümlədən: politologiyanın (müqayisəli politologiya, dövlət idarəçiliyinin və qərar qəbul edilməsinin nəzəriyyəsi, siyasi konfliktologiya, tranzitologiya, siyasi mədəniyyət , siyasi ideologiya və beynəlxalq siyasət nəzəriyyəsi), siyasi tarixin, siyasi fəlsəfənin və onunla əlaqədar olan fənlərin( siyasi qlobalistika, siyasi antropologiya, siyasi humanistika və s.), siyasi astrologiyanın, siyasi sosiologiyanın, siyasi coğrafiyanın, siyasi ekologiyanın, biosiyasətin, elektoral coğrafiyanın, coğrafi urbanistikanın, siyasi iqtisadiyyatın, siyasi etikanın, siyasi-iqtisadi nəzəriyyənin, siyasi linqvistikanın, siyasi informatikanın və s. fərqləndirici xüsusiyyətləri.

Siyasi tədqiqatların metodologiyası və metodları. Müasir siyasi elmdə metodoloji yanaşmaların spesifikliyi. Nəzəri konstruksiya və metodların geniş spektrindən səmərəli istifadəetmə məsələləri. Tarixi metod, müqayisəli metod, sistemli metod, müqayisəli-keyfiyyət metodları (o cümlədən, müqayisəli sistemli təhlil), struktur funksional təhlil, modelləşdirmə metodu, biheviorçu metodikalar qrupu, qruplar nəzəriyyəsi, siyasi kommunikasiya metodu, oyunlar nəzəriyyəsi və qərarlar qəbuletmə metodu, siyasi monitorinq, kontent –təhlil, “case-study” metodu, “rasional seçim” nəzəriyyəsi, ekonometrik metodlar (struktur tənliklər modeli, zaman sırasının və qeyrixətt modellərin təhlili və s.), eksperimental metodlar, pat tədqiqatlar, aksioloji yanaşmalar və digər metodların fərqləndirici

xüsusiyyətləri.

Siyasi elmin inkişafında ənənələrin rolu. Politologiyanın funksiyaları. Funksiyaların müxtəlif qrupları: 1.klassik nəzəri funksiyalar, 2. Tətbiqi xarakter daşıyan funksiyalar, 3. Elmin xaricində gerçəkləşən funksiyalar.

## Mövzu 2. Siyasi elmin əsas paradiqmaları

Paradiqmal təfəkkürün təbiəti. Paradiqma idrak probleminin qoyulmasının və həll edilməsinin özünəməxsus məntiqi modeli kimi (T.Kun). Politologiya multiparadiqmal elm kimi. Siyasi elm üçün fundamental əhəmiyyətə malik olan paradiqmalar. **Teoloji, naturalistik və sosiosentrik** paradiqmaların mahiyyəti. Naturalistik paradiqmanın daxilindəki müxtəlif qollar. Siyasətin öyrənilməsinə coğrafi yanaşma.J.Boden, Ş.Monteskye, K.Ritter, F.Ratsel, Q.Makkinder, K.Haushofer, A.Mehen, N.Spaykman, E.Hantinqton, A.Toynbi, J.Brün, Vidal de la Blanş, R.Çellen, P. Hartşorn və S. Koenin ideyaları. Ç.Darvinin və N.Tinberhenin nəzəriyyələrinə, K.Lorensin tədqiqatlarına, S.Lambroso və M.Nordaunun doktrinalarına söykənən **biosiyasi** yanaşma. P.Mayerin konsepsiyası.

**Psixologizatorçu** yanaşma. Q.Tard, Q.Lebon, L.Qumploviç, A.Diltey və E.Dürkheymin ideyaları.

**Sosiosentrik** paradiqmanın daxilindəki müxtəlif yanaşmalar.**Universalçı** yanaşma. Aristotel, M.Veber, J.Meyno, J.Berjeron və T.Parsonsun ideyaları. K.Şmittin nəzəriyyəsi. **Kulturoloji** yanaşmanın xüsusiyyətləri. M.Şeller, H.Arendt və başqalarının görüşləri.**Rasional-tənqidi** yanaşmaların spesifikliyi. G.Hegel, B.Spinoza, A.Bentli, Q.Moska, B.Krik, M.Krozyenin ideyaları. **Münaqişə nəzəriyyəsi** (Q.Zimmel, K.Marks, A.Bentli, K.Bouldinq, L.Kozer, R.Darendorf, C.Berton, K.Lederer və başqaları) və **konsensus nəzəriyyəsi** (M.Veber, D.Dyui, T.Parsons və başqaları).

## Mövzu 3. Siyasi elmin tarixi

Hakimiyyətin və ictimai – siyasi quruluşun ilahi mənşəyi haqqında mifoloji

təsəvvürlər (e.ə I və II minilliklər).Dini-mifoloji forma siyasət dünyasının qavranılması və ixtisaslaşdırılmış(elmdən əvvəlki) inkişafının tarixən ilkin forması kimi.Öncə siyasi kateqoriya və definisiyaların ,sonra isə fəlsəfi-etik xarakter daşıyan konsepsiyaların yaranması ilə bağlı olaraq siyasi görüşlərin tədricən rasionallaşması (təxminən e.ə. I minilliyin ortalarından başlayaraq ). "Siyasi elmin atası" adlandırılan Platonun yaradıcılığı ilə bağlı əsl siyasi elmin başlanğıcı.

Siyasi elmin inkişaf dövrləri(R.Dal). İnkişafın **Birinci-fəlsəfi** dövrü. Bu sahədə ilk klassik əsərlərə çevrilmiş Platonun tədqiqatlarında siyasi baxışları. Platonun normativ konsepsiyası. Onun tərəfindən verilən siyasi rejimlərin 6 real tipinin təsnifatı. Aristotel siyasi elmdə analitik cərəyanın banisi kimi. Tarixdə ilk dəfə Aristotel tərəfindən edilən dövlətin təhlili. Ellinizm dövründə siyasi elmin xüsusiyyətləri . Orta əsrlərdə siyasi elmin inkişafı.

İntibah və Yeni dövrlə bağlı (XVI-XIX əsrlər) siyasi elmin təşəkkülünün **İkinci –empirik** mərhələsi. Siyasi sahənin mürəkkəbləşməsi, onun sosial sferanın özünə xas spesifik əsaslara və mexanizmlərə malik olan bir hissəsi kimi qavranılması. N.Makiavelli – Platon və Aristoteldən sonra siyasi təfəkkürün üçüncü ənənəvi cərəyanın banisi və siyasi nəzəriyyəni dövlət haqqında təlimlə eyniləşdirən bir müəllif kimi. N.Makiavellinin siyasi təlimində cəmiyyət və dövlət məsələləri. XVI əsrdən – XIX əsrin ortalarına qədər siyasi elmin inkişafı. J.Boden, T.Hobs, C.Lok, J.J.Russo, Ş.Monteskye, D.Mil, İ.Bentam, A.Tokvil, K.Marksın və rasionalizm, azadlıq,vətəndaş bərabərliyi ideyalarını tədqiq edən digər görkəmli mütəfəkkirlərin təlimləri.

Siyasi elmin inkişafında təxminən XIX əsrin sonundan başlayaraq bu günə kimi davam edən **Üçüncü – empirik biliyin təftiş edilmə** dövrü.

Siyasi elmin biliyin müstəqil sahəsi və əlahiddə tədris fənni kimi təşəkkül tapması. XIX əsrin sonu – XX əsrin əvvəllərində "Siyasi elm" istilahının Avropa və ABŞ-da qəbul edilməsi və geniş yayılması. İlk milli peşəkar siyasi elm assosiasiyaların yaranması. XIX əsrin sonu - XX əsrin ilk onilliklərində siyasi elmin inkişaf xüsusiyyətləri. **İnstitusionalizmin** təşəkkülü və xarakterik xüsusiyyətləri. XX əsrin 20-30-cu illərində onun inkişafının ilk

mərhələsi.İnstitusional nəzəriyyənin əsas cəhətləri. YUNESKO-nun himayəsi altında öz sıralarında əksər milli təşkilatları birləşdirən Siyasi Elmin Beynəlxalq Assosiasiyasının(SEBA)yaradılması.

XX əsrin 40- 80-ci illərində siyasi elmin inkişaf xüsusiyyətləri. ABŞ-da 40-cı illərdə siyasi elmin inkişaf xüsusiyyətləri.Avropada 40-cı illərdə siyasi elmin inkişaf xarakteri və templəri. 40-80-cı illərdə siyasi nəzəriyyənin və siyasi fəlsəfənin inkişaf mərhələləri. O dövrdəki siyasi tədqiqatların əsas problemləri: reideologizasiya, sistemli yanaşma, demokratik elitizm nəzəriyyəsi, kapitalizm və demokratiyanın nisbəti problemi (plüralistlər və neoklassiklərin baxışları), demokratik təsisatların bürokratiya, korporativizm və neokorporativizm ilə simbioz problemləri,habelə onların demokratik təsisatlara və proseduralara təsiri, KİV-hakimiyyətin qazanılması və həyata keçirilməsinin aləti kimi, KİV-in fəaliyyəti və demokratiya prinsiplərinin nisbəti (iştirak demokratiyası, teledemokratiya), postbiheovirizm və postpozitivizm, müasir germenevtika, postmaterial sərvətlər ("həyat tərzi paradiqması" və yaxud "həyatın keyfiyyəti" paradiqması).

İnstitusionalizmin inkişafında **ikinci** mərhələ (İkinci dünya müharibəsindən sonrakı illərdən 60-70-ci illərin ortalarına kimi). Həmin dövrün əsas nümayəndələri.

XX əsrin 90-cı illəri- XXI əsrin başlanğıcında Qərbdə siyasi elmin vəziyyəti. Institusional yanaşmanın hakim mövqe tutması. İnstitusionalizmin inkişafında **üçüncü** mərhələ - **neoinstitusionalizm,** yaxud yeni **institusionalizm.** Neoinstitusionalizmin köhnə institusionalizmdən fərqlənməsi. Yeni institusionalizmin müxtəlif şaxələri: **normativ institusionalizm, tarixi institusionalizm, sosial institusionalizm, struktur institusionalizm**.

**Komparativistika** XX əsrin sonu - XXI əsrin əvvəllərində siyasi elmin geniş yayılmış cərəyənlarından biri kimi.Yeni komparativist tədqiqatların xüsusiyyətləri.

Son 40-50 ildə siyasi elmin ən prespektivli və orijinal cərəyanlarından birinə çevrilmiş **feminist siyasi nəzəriyyə**.Feminizmin qısa tarixi. Müasir feminist

konsepsiyalar.

**Postmodernizm** müasir cəmiyyətin və insanların dünyaya münasibətinin dərin transformasiyaya uğramasının inikası kimi. Plüralistik paradiqmanın bərqərar olunması.R.İnqlhartın yaradıcılığında postmodern problemləri.

**Mövzu 4. Müasir dövrün əsas milli siyasi elm məktəbləri**

Müasir dünyanın ən ilkin və ən mötəbər siyasi elm məktəblərindən biri olan **ABŞ siyasi elm məktəbi**. Bu ölkədə siyasi elmin tədris fənni kimi formalaşması. Əvvəlcə Universitetlərdə siyasi elm məktəblərinin ,sonra isə Amerika siyasi elmlər assosiasiyasının yaranması. Amerika siyasi elmində metodologiya problemləri. XX əsrin 20-30-cu illərində Çikaqo məktəbinin fəaliyyəti. Ç.Merriamın və Q.Lassuelin elmi-siyasi görüşləri. O dövrün siyasi problemləri tədqiq edən əsas akademik mərkəzləri. 20-ci əsrin 40-60-cı illərində Amerika siyasi elminin xüsusiyyətləri. 50-ci illərdə Biheviorçu inqilab.ABŞ-da siyasi elmin mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edən, geniş şaxələnmiş akademik və tədris fənninə çevrilməsi. İkinci dünya müharibəsindən sonra Amerika siyasi elminin avropalılara aparıcı təsiri. XX əsrin 70-ci illərindən bu günə kimi politoloji tədqiqatların əsas istiqamətləri. Siyasi elm sahəsində dərin iz qoyan Amerika alimləri. (H.Margentau, Q.Almond, S.Verba, H.Arendt, C.Roulz,R.İnqlhart, R.Patnem,D.İston,H.Saymon, T.Rarsons, C.Març,R.Dal, A.Leyphart, S.Hantinqton, Z.Bjezinski və başqaları)

**Böyük Britaniyanın siyasi elm məktəbi.** XX əsrin 40-cı illərinə qədər ingilis siyasi elminin mənbələri ,inkişaf xüsusiyyətləri və tədqiqat sahələri. H.Laskinin yaradıcılığı. Müharibədən sonrakı dövrdə davranış tədqiqatları. Onların iqtisadi və sosioloji istiqamətləri. İkinci dünya müharibəsindən sonra Böyük Britaniya siyasi elminin inkişafına Amerika politologiyasının təsiri. Aparıcı müasir ingilis politoloqlarının yaradıcılığı (K.Popper,M.Oukeşott,T.B.Bottomor, H.Bull və başqaları)

**Almaniyanın siyasi elm məktəbi.** Almaniyada siyasi elmin yaranması və inkişaf xüsusiyyətləri.Q.Yellinek,M.Veber,R.Mihels və F.Ratselin elmi tədqiqatları.

A.Hitler hakimiyyətə gəldiyi və nasional-sosializm rejimi bərqərar olduğu vaxtdan başlayaraq İkinci dünya müharibəsinin sonuna kimi Alman siyasi elminin vəziyyəti. 40-cı illərin sonu – 50-ci illərin əvvəllərində intellektual prosesin bərpa olunması. 50-60-cı illərdə Almaniya Federativ Respublikasında siyasi elmin fəlsəfi-nəzəri xarakterinin üstünlüyü. Alman politologiyasını kəmiyyət metodlarından istifadə edilməklə empirik tədqiqatlara tədricən dəyişdirilməsi. Müasir alman politologiyasının səciyyəvi cəhətləri. Almaniyanın müasir siyasi filosofları və aparıcı politoloqları. (K.Yaspers, Y.Rormozer, Y.Habermaş, R.Darendorf, H.D.Klingeman və başqaları)

**Fransız siyasi elm məktəbi.** Bu ölkədə Özəl Azad siyasi elm məktəbinin fəaliyyəti (1871 il). XX əsrin 60-cı illərinə qədər Fransada siyasi təzahürlərin təhlilinə dair hüquqi və fəlsəfi yanaşmaların geniş yayılması.1968 və 1972-ci illərdəki hadisələrin təsiri altında Fransız milli siyasi elm məktəbində baş verən fəlsəfi nəzəri işləmələrdən praktiki (tətbiqi) problemlərin təhlilinə dönüş. Siyasi elmin inkişafına L.Dyüqi, M.Oriu, R.Aron və M.Düverjenin bəxş etdiyi yeniliklər. Müasir tanınmış Fransa politoloqları, onların elmi-nəzəri və elmi-praktiki konsepsiyaları.

**İtaliya siyasi elm məktəbi.** XIX əsrin sonu – XX əsrin əvvəllərində İtaliyada siyasi-hüquqi nəzəriyyənin fəlsəfi xarakteri. O vaxtlar hegelçiliyin və marksizmin geniş yayılması. Siyasi elmin inkişafında 1874-cü ildə Florensiyada yaranan və “Cesare Alfieri” adlanan sosial elmlər məktəbinin rolu. Q.Moska və V.Paretonun yaradıcılığı. Faşizmin bərqərar olunduğu dövrdə İtaliada siyasi elmin vəziyyəti (XX əsrin 20-40-cı illəri). İkinci dünya müharibəsindən sonra İtaliya siyasi elminin inkişaf xüsusiyyətləri. N.Bobbio və C.Sartorinin siyasi görüşləri.

**İspaniya siyasi elm məktəbi.** XIX əsrin son rübündə İspaniyada siyasi elmin formalaşması. Franko diktaturasının sabitləşməsinə qədər İspaniyada siyasi elmin səciyyəvi xüsusiyyətləri. Bu bilik sahəsinin inkişafında A.Posadanın rolu. Müasir İspan siyasi elminin spesifikliyi. J.Orteqa–i-Qassetin yaradıcılığı.

**Rusiyada siyasi elmin inkişafının xüsusiyyətləri.** XIX əsrin sonu - XX

əsrin əvvəllərində Rusiyada siyasi tədqiqatlar. 1917-ci il bolşevik inqilabından sonra siyasi elmin inkişafının çox güclü ləngiməsi. SSRİ-də siyasi elmin çətin və ağrılı təşəkkül prosesi. Rusiya Federasiyasının yaranması ilə əlaqədar bu sahədə vəziyyətin ciddi dəyişilməsi. Rusiyada həmin dövrdə politoloji tədqiqatların akademik, tədris və elmi-praktiki mərkəzləri. Siyasi elmin müxtəlif subfənlərinin inkişafında geriliyin aradan qaldırılması. Politoloqlar birliyinin yaradılması, politologiyanın sosial dərketmənin müstəqil sahəsinə çevrilməsi,onun akademik və tədris fənni kimi formalaşması. Siyasi elmin təşəkkül dövründə fəal inkişaf və bərqərar olunma, möhkəmlənmə dövrünə keçid. Siyasi tədqiqatların əsas istiqamətlərinin formalaşması. Tanınmış Rusiya politoloqları və onların elmi görüşləri.

**Azərbaycanda siyasi elmin inkişaf xüsusiyyətləri**

XIX əsrin ikinci yarısında Azərbaycanda siyasi elmin təşəkkülü. Azərbaycan mütəfəkkirlərinin mütərəqqi Avropa siyasi nəzəriyyələrinə və ideyalarına qoşulması. A.Bakıxanovun, M.F.Axundovun və M.Kazımbəyin siyasi baxışları. XIX əsrin sonu- XX əsrin başlanğıcında siyasi elmin vəziyyəti. H.Zərdabi, M.Ə.Sabir, C.Məmmədquluzadə, M.Rəsulzadə, N.Nərimənov , Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Şaxtaxtınski, H.Cavid, Ü.Hacıbəylinin siyasi görüşləri. Sovet hakimiyyəti illərində siyasi fikrin inkişaf xüsusiyyətləri.Müstəqil Azərbaycan Respublikasında siyasi elmin rəsmi tanınması .1991-ci ildən indiyə kimi siyasi elmin inkişaf spesifikası.

**İsveç siyasi elm məktəbi**

Siyasi elmin İsveçdə tarixi retrospektivi. 1622-ci ildə yaradılan Upsala Universitetində yeni fənnin əsasının qoyulması. Yoxan Skittin Natiqlik və siyasət kafedrasının XVII əsrdə fəaliyyət xüsusiyyətləri. 1901-ci ildə professor Rudolf Kyellen tərəfindən siyasi elmlərin Göteborq Universitetinin kollecində tədris olunan fənlər siyahısına salınması. Siyasi elmin XX əsrin əvvəllərindən bu günə kimi inkişaf spesifikası. 1970-ci ildə İsveç Siyasi Elm Assosiasiyasının yaranması, inkişafı və hazırkı vəziyyəti.

**Avstriya siyasi elm məktəbi**

Siyasi elmin akademik fənn kimi 1963-cü ildə yaranması. 1971-ci ildə siyasi elmin müstəqil tədqiqat sahəsi və tədris fənni kimi formalaşması. Siyasi elmin gec institusionallaşmasının səbəbləri. Ölkədə siyasi elmin inkişaf xüsusiyyətləri. Siyasi elmin tam kursu tədris olunan universitetlər. Siyasi elmin tədqiqi üzrə ixtisaslaşan təşkilatlar. Avstriya Siyasi Elm Assosiasiyasının yarandığı dövrdən (1971-ci il) bu günə kimi fəaliyyəti.

**Niderland siyasi elm məktəbi**

Holland siyasi elminin dərin kökləri. Leyden Universitetində 1613-cü ildə Daniel Heynsiusun ilk siyasət professoru qismində fəaliyyət göstərməsi. "Scientia politica"(siyasi elm) çərçivəsində predmeti dövlət olan müxtəlif elmlərin bir vahid tam kimi birləşməsi. 1840 –cı illərdən başlayaraq İkinci dünya müharibəsinə qədər Hollandiya Universitetlərində siyasi elmin inkar edilməsi. Bu müharibədən sonra siyasi və ictimai elmlər fakültəsinin Amsterdam Universitetində, siyasi elmlər kafedralarının Neymegen Universitetində(1950-ci il) və Amsterdamın kalvinçi Azad Universitetində(1953-cü il) yaradılması. Siyasi elmin müstəqil fənn kimi inkişaf xüsusiyyətləri. 1950-ci ildə əsası qoyulan Holland Siyasi Elm Assosiasiyasının(Siyasət üzrə Holland Dərnəyi) fəaliyyəti. Siyasi elm tədris olunan Niderland ali məktəbləri. Siyasi elm üzrə tədqiqat mərkəzləri.

**Portuqaliya siyasi elm məktəbi**

Portuqaliyada siyasi elmin hüquqla, ilk növbədə konstitusiya hüququ ilə qarşılıqlı əlaqəsi. Marsello Kaetanonun Konstitusiya hüququ və siyasi elmlər kafedrası.(1952). Müstəmləkə məktəbinin(1906) müasir Siyasi və İctimai Elmlər İnstitutuna çevrilməsi. 1950-ci illərdə Adriano Moreyra tərəfindən yaradılan Sosial və Siyasi Tədqiqatlar Mərkəzinin fəaliyyəti. Roje-Jerar Şvarsenberqin "Siyasi sosiologiya – siyasi elmin elementləri"(1977) əsəri sosiologiya çərçivəsində siyasi elmin yaranmasının göstəricisi kimi. Siyasi elmin 1950-ci illərdən bu günə kimi inkişaf xüsusiyyətləri. 25 sentyabr 1998-ci il tarixində yaradılan Portuqaliya Siyasi Elm Assosiasiyasının fəaliyyəti.

**Finlandiya siyasi elm məktəbi**

1921-ci ildə Helsinki Universitetində ölkədə ilk siyasi elm kafedrasının yaradılması. İkinci Dünya Müharibəsinin sonuna qədər Finlandiya siyasi elminə alman ümumi dövlət nəzəriyyəsinin təsiri. Müharibədən sonra ABŞ-da formalaşan yeni siyasi və politoloji ideyaların Finlandiyada yayılması. Siyasi elmdə biheviorçu inqilab. Finlandiya siyasi elmində daxili və xarici fraqmentasiya. Siyasi elmin 6 universitetdə:Helsinki, Abo, Tampere, Turku, İyuvəskül və Laplandiya Universitetlərində tədrisi. 1935-ci ildə yaradılan Finlandiya Siyasi Elm Assosiasiyasının fəaliyyəti. Finlandiya siyasi elminin inkişafının 5 mərhələsi: 1921-1944(siyasi elm fənninin yaranması); 1945-1964(fənnin stabilləşməsi); 1965-1974(fənnin inkişafı); 1995- dən bu günə kimi(fənnin restrukturizasiyası).

**Norveç siyasi elm məktəbi**

Siyasi elm üzrə ixtisaslaşdırılmış təhsil proqramlarının 1947-ci ildə Oslo Universitetində tədris prosesinə daxil edilməsi. Həmin universitetdə ilk siyasi elm kafedrasının 1957-ci ildə yaradılması və fəaliyyəti. Burada siyasi elm fakültəsinin formalaşdırılması. Norveçdə siyasi elmin institusionallaşması və inkişaf tendensiyaları.

**Belçikada siyasi elmin inkişaf xüsusiyyətləri**

Gent və Lyej Dövlət Universitetlərində 1893-cü ildən başlayaraq siyasi elmin tədrisi və tədqiqi. Luvenin Katolik Universiteti və Brüsselin Azad Universitetində siyasi və ictimai elmlər bölməsinin açılması. Belçikada politologiyanın təşəkkülü və inkişafı. 1951-ci ildə Belçika Siyasi Elm İnstitutunun və 1958-ci ildə Sosial-Siyasi İnformasiya və Tədqiqatlar Mərkəzinin yaradılması və fəaliyyəti. Ali təhsil siyasətində parçalanma və politologiyanın hazırki institusional strukturu. Ölkədə 2 siyasi elm assosiasiyasının yaranması və inkişaf xüsusiyyətləri.

**Danimarka siyasi elm məktəbi**

Siyasi elmin Danimarkada XX əsrin 2-ci yarısında yaranması və inkişafı. Siyasi elm üzrə tədris proqramının 1958-ci ildə Orxus Universitetində işlənilməsi

və qəbul edilməsi. Belə proqramların Kopenhagen və Odens Universitetlərində tədris prosesinə daxil edilməsi. 2002-ci ildə siyasi elm üzrə doktorların Milli Məktəbinin yaradılması. 1961-ci ildə Danimarka Siyasi Elm Assosiasiyasının təsis edilməsivə inkişaf spesifikası. Ölkədə siyasi elmin hazırki vəziyyəti və inkişaf perspektivləri.

**Mövzu 5. SEBA və Siyasi elm üzrə Avropa təşkilatları**

"Siyasi elm: yeni istiqamətlər" adlanan, müxtəlif ölkələrin və bir çox nəzəri cərəyanların nüfuzlu mütəxəssisləri tərəfindən nəhəng həcmdə məlumatlar toplanan bu əsərin yaranmasında SEBA-nın (Siyasi Elmin Beynəlxalq Assosiasiyasının) rolu. SEBA-nın Konqresləri Ümumdünya politoloji forumları kimi. Burada alimlər və siyasətçilər öz tədqiqatlarının nəticlərini bölüşdürür, öz ölkələri və bütövlükdə dünya birliyinin siyasi həyatının ümumi və xüsusi cəhətlərini müəyyənləşdirir, qlobal, beynəlxalq –regional və ölkədaxili siyasi prosesləri müzakirə edir, son görüşdən bəri siyasi elmin nəticələrini yekunlaşdırır, milli siyasi elmin vəziyyətini dünyada mövcud olan tendensiyalarla müqayisə edirlər. Konqreslərin miqyasını daim artması.

"Dünya kapitalizmi,idarəetmə və birlik : korporativ minilliyə doğru" şüarı altında keçən SEBA-nın 18-ci Ümumdünya Konqresi .Bu Konqresdə müzakirə olunan ən əsas problemlər ,o cümlədən : 1) özündə altı konseptuallaşmış kateqoriyanı(minimal dövlət ,korporativ idarəetmə,yeni publik menecment ,yaxşı idarəetmə,sosiokibernetik sistem və özünütəşkiledən şəbəkələr kateqoriyalarını) cəmləşdirən idarəetmə konsepsiyası, 2)elitalar, 3) siyasi sinif, 4)bürokratiya, 5) dövlət xidməti problemləri.

Qloballaşma prosesinin artması şəraitində ayrı-ayrı ölkələrin və bütövlükdə dünyanın ictimai-siyasi həyatında xüsusi rol oynayan korporativ kapitalla bağlı olan müxtəlif məsələlər. Bu mövzunun Konqres iştirakçıları tərəfindən haqqında fikir söylədiyi əsas istiqamətləri. Postmodern və onun təmayüllərinin siyasət dünyasına təsiri. Postmodernist dövlətin konsepsiyası. Ənənə faktoru və onun dünya birliyinin qloballaşma şəraitindəki sabitləşdirmə imkanları. Üçüncü minilliyin başlanğıcında demokratik və korporativ-avtoritar təmayüllərin inkişaf

perspektivləri. SEBA-nın XXVIII, XIX,XX, XXI,XXII, XXIII və XXIV Ümumdünya Konqresləri . Avropa politoloqlarının peşəkar birlikləri. Politologiya Müəllimlərinin Avropa Assosiasiyası (eps Net). Siyasi Tədqiqatlar üzrə Avropa Konsorsiumu (ECPR). Siyasi Elmin Beynəlxalq Assosiasiyasının Avropa Konfransı(ECNPSA)

## Mövzu 6. Siyasi komparativistika

Müqayisəli politologiyanın formalaşması prosesində iki əsas **nomometik** (ümumiləşdirici) və **ideoqrafik** (fərdiləşdirici) tədqiqat ənənələrinin təşəkkülü. Siyasi komparativistikanın əmələ gəlməsinin və inkişafının mərhələləri. **Birinci mərhələdə** (XX əsrin birinci yarısı) **təsviri**, yaxud **konfiqurativ** yanaşmanın üstünlük təşkil etməsi. **İkinci mərhələnin** (XX əsrin 50-70-ci illəri) əsas xüsusiyyətləri.1954 - cü ilin mart ayında İctimai Tədqiqatlar üzrə Amerika Şurasının nəzdində yaradılan və dünyanın müxtəlif ölkələrini öyrənən 25 alimi özündə birləşdirən Müqayisəli Politologiya üzrə Komitənin rolu və əhəmiyyəti.XX əsrin 60-cı illərinə təsadüf edən müqayisəli politologiyanın "qızıl əsri". Həmin dövrdə bu bilik sahəsində iki yeni - **sistemli və davranış** (biheviorist) elmi yanaşmaların meydana gəlməsi. XX əsrin 80-ci illərində yaradılan və siyasi komparativistikada mücərrədlik səviyyəsini və müqayisə miqyasını dəyişdirən yeni məktəblə bağlı olan **Üçüncü mərhələ.** .

Müqayisəli tədqiqatların tematikası. R.Roqovski tərəfindən XX əsrin 90-cı illərinə aid müqayisəli politologiyanın vəziyyətinin icmalında göstərilmiş **5** əsas təmayül, hansılar ki, bu sahədə aparılan tədqiqatların yeni mövzularını müəyyən edir: 1) daxili siyasətin beynəlxalq konteksti və siyasi institutların işləməsi, 2) siyasətin iqtisadi aspektləri, 3) maraq qrupları, 4)dövlət strukturları və onların fəaliyyəti, 5) milliyətçiliyin və etnik münaqişələrin öyrənilməsinə tələbatın artması.

**Siyasi mədəniyyət,demokratikləşmə,dəyərlərin dəyişməsi, institusionalizm, developmentalizm, yaxud inkişaf məsələlərini vurğulayan yeni müqayisəli politologiya və neoinstitusionalizm** – müasir siyasi

komparativistikanın prioritet problemləri kimi. XX əsrin 80-ci illərində formalaşan və bütövlükdə müqayisəli politologiyanın metodoloji transformasiya prosesini xarakterizə edən üç əsas təmayül. Postmodernist və feminist siyasi-nəzəri istiqamətlərdə irəli sürülən birinci – **radikal** təmayül. Tarixi-müqayisəli metodologiyanın əvvəlki əhəmiyyətinin qaytarılmasıyla bağlı olan ikinci – **bərpa edilmə** təmayülü. Yeni konseptual yanaşmalara müraciət yolu ilə komparativ təhlilin instrumentarisinin genişlənməsindən ibarət olan üçüncü – yeniləşmə təmayülü.

XX əsrin sonu – XXI əsrin əvvəllərində komparativ tədqiqtların tematikasının genişlənməsi.

## Mövzu 7.Siyasi fəlsəfə

Siyasi fəlsəfə siyasət dünyasının idrak nəzəriyyəsi **(siyasi epistemologiya),**siyasi varlıq **(siyasi ontologiya**) və siyasətin əxlaqi-etik başlanğıcı **(siyasi aksiologiya)** haqqında təlim kimi. Siyasi fenomenlərin məğzi və təbiətində diqqətini cəmləşdirən siyasi fəlsəfənin fəlsəfəylə siyasi elmin kəsişmə nöqtəsində yerləşməsi. .

Siyasi fəlsəfənin XX əsrin 50-ci illərindən bu günə kimi inkişaf tarixi haqqında müasir elmi ədəbiyyatda geniş yayılmış fikirlərin xülasəsi: 1) 50-60-cı illərdə siyasi fəlsəfənin tənəzüllü və yaxud,hətta ölümü; 2) Vyetnamda müharibə,ABŞ-da vətəndaş haqları uğrunda hərəkat, müharibədən sonraki konsensusun pozulması və yeni solçuların hərəkatının yaradılmaslı kimi amillərlə şərtləşdirilmiş siyasi və ideoloji mübarizənin səviyyəsinin artırılması. 70-80-ci illərdə siyasi fəlsəfənin dirçəlişini stimullaşdıraraq ona yeni həyat verir; 3) C.Roulzun siyasi fəlsəfənin canlanmasının rəmzinə çevrilmiş məşhur "Ədalət nəzəriyyəsi" (1971) əsəri. Müasir siyasi elmdə yuxarıda göstərilən yanaşmaya yenidən baxılma. Sonuncuya müvafiq olaraq İkinci Dünya Müharibəsindən sonra məhz 60-70-ci illərdə siyasi fəlsəfənin fəal və uğurlu inkişafı. XX əsrin H.Arendt,M.Oukşot, K.Popper, L.Strauss, E.Vöglin, S.Makferson,F.Hayek, R.Kollingvud və C.Santayana kimi görkəmli və nüfuzlu siyasi filosofların əsərləri. Müasir dövrün

siyasi fəlsəfəsinin mücərrəd, təsviri, reflektiv və izahedici xarakteri.

Siyasi fəlsəfənin 70-80-ci illərdə praktiki fəlsəfənin normativist forması kimi inkişafı. Siyasi fəlsəfənin ümumiləşdirmənin daha aşağı səviyyəsinə keçməsi,ona mənəvi və tövsiyə xarakterinin verilməsi. Bu fənnin uzun müddət bağlı olduğu məntiq, Qərb sivilizasiyasının tarixi və ontologiyadan ayrılması və gnoseoologiya, iqtisadiyyat, əxlaqi psixologiya, siyasi institutların öyrənilməsi və sosial psixologiya ilə birləşdirilməsi.

XX əsrin 80-ci illərindən bu günə kimi siyasi fəlsəfənin inkişaf xüsusiyyətləri. Həmin dövrdə siyasi fəlsəfənin mahiyyəti və problematikasına dair formalaşan 4 əsas yanaşma.

Kommunitarizm müasir fəlsəfi- siyasi nəzəriyyə kimi. XX əsrin 80-90-cı illərində liberal-kommunitar debatlar. İ.Kimlikanın "Liberalizm,icma və mədəniyyət" (1989) və C.Roulzun " Siyasi liberalizm" (1993) əsərləri. XXİ əsrin ilk iki onilliyində siyasi fəlsəfənin spesifik cəhətləri.

## Mövzu 8. Analitik siyasi nəzəriyyə

Nəzəriyyə bu və ya digər təzahür və proseslərin şərhini öz qarşısında məqsəd qoyan təsəvvürlərin, baxışların, ideyaların kompleksi kimi.Analitik siyasi nəzəriyyə müxtəlif dünyagörüşü istiqmətləri ilə bağlı olan siyasət dünyasının mənimsənilməsinin və izahının xüsusi forması kimi. T.Parsonsun üç əsas funksiyanı : 1) mövcud konkret biliyin kodifikasiyası, 2) tədqiqatların aparılması və 3) öyrənilən reallıqların interpretasiya çərçivəsinin təmin edilməsi funksiyalarını yerinə yetirmək qabiliyyəti olan "sosial elmlərin ümumi nəzəriyyəsi" haqqındakı ideyası.

Müasir siyasi elmin prioritet əhəmiyyətli analitik nəzəriyyələri: **hakimiyyət, demokratiya, rasional seçim, elitalar və liderlər, postmodernizm və güclü dövlət nəzəriyyələri.**

**Hakimiyyət nəzəriyyəsi**. Siyasi hakimiyyətin təbiəti və mahiyyəti. Hakimiyyət və onun tarixi formaları. Siyasi hakimiyyətin müasir nəzəri traktovkaları. Hakimiyyətin nümayəndəlik və bölünməsi problemləri. Hakimiyyətin üç qolu.

Siyasi hakimiyyətin xüsusiyyətləri və spesifik əlamətləri. Müasir siyasi elmdə hakimiyyətin legitimliyi məsələləri.

